# Fəttah Səməd oğlu Heydərov

Azərbaycan ictimaiyyətində öz fəaliyyəti ilə tanınmış ictimai xadim, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının Sədri Fəttah Səməd oğlu Heydərov 2020-ci il avqustun 4-də ömrünün 83-cü ilində vəfat etmişdir.

Fəttah Heydərov 1938-ci il fevral ayının 23-də Naxçıvan Muxtar Respublikasının indiki Babək rayonunun Çeşməbasar kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə qəbul olmuş, 1964-cü ildə mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1975-ci ildə Bakı Ali Partiya Məktəbinin məzunu olmuşdur.

Fəttah Heydərov 1955-1958-ci illərdə Naxçıvan Muxtar Respublikasının indiki Babək rayonunun Güznüt kənd klubunun müdiri, 1958-1966-cı illərdə isə rayonun Çeşməbasar kənd səkkizlik məktəbinin müəllimi işləmişdir. O, 1966-1970-ci illərdə Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı və 1970-1976-cı illərdə Ordubad Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır.

Fəttah Heydərov 1976-1978-ci illərdə Naxçıvan Muxtar Respublikasının Əhaliyə Məişət Xidməti naziri vəzifəsində çalışmış, 1978-1983-cü illərdə Ordubad və Culfa rayon partiya komitələrinin birinci katibi, 1983-1995-ci illərdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri vəzifəsində işləmişdir.



1970-1990-cı illərdə Naxçıvan şəhər və Ordubad rayon Xalq Deputatları Sovetinin, 1990-1995-ci illərdə isə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı kimi fəaliyyət göstərmişdir. 1995-ci ildən etibarən ardıcıl olaraq altı çağırış Qəbələ rayon seçiciləri tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində nailiyyətlərin əldə olunmasında Azərbaycan Respublikası Milli Məclisinin Deputatı kimi yüksək xidmətləri olmuşdur. O, uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının ali mükafatlarına layiq görülərək,2008-ci ildə "Şöhrət", 2013-cü ildə "Şərəf" və 2018-ci ildə "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Qədim Qəbələnin bütün sahələr üzrə inkişaf etdirilməsi Fəttah Heydərovun həmişə diqqət mərkəzində olmuşdur. Qəbələnin abadlaşdırılması, rayon əhalisinin əmək məşğuliyyəti və asudə vaxtının səmərəli keçirilməsi, turizmin inkişafı sahəsində görülən işlərdə onun əməyi təqdirəlayiqdir.

Rayon ictimaiyyəti və eləcə də rayon əhalisi həmişə Fəttah Heydərovu ictimai xadim və səmimi insan kimi xoş təəssüratlarla xatırlayacaq, onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

# Qəbələ Rayon İcra Hakimiyyətində vətəndaşların növbəti onlayn qəbulu

Koronavirus pandemiyasının təsiri nəticəsində dünya ölkələrinin iqtisadiyyatında tənəzzül müşahidə olunmasına baxmayaraq Azərbaycan ölkə Prezidentinin düşünülmüş, uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatın dayanıqlılığını təmin edə bilib. Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində əldə olunan gəlirlərin böyük bir hissəsi ölkə iqtisadiyyatının dirçəldilməsi ilə yanaşı, əhalinin sosial müdafiəsinə də yönəldilir. Xüsusən koronavirus pandemiyası ilə əlaqədar məşğulluğun və sosial rifahın dəstəklənməsi sahəsində görülən tədbirlər beynəlxalq aləmdə yüksək qiymətləndirilir və təqdirəlayiq hesab olunur.





Pandemiya dövründə prioritet məsələ insanların sağlamlığı, onların sosial müdafiəsinin - insan amili, vətəndaş məmnunluğunun təmin edilməsidir. Ölkə Prezidentinin bu siyasəti respublikanın hər yerində olduğu kimi Qəbələ rayonunda da uğurla həyata keçirilir.

Bu və digər sosial məsələlərin həlli ilə bağlı Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev bu günlərdə vətəndaşların növbəti onlayn qəbulunu keçirmişdir. Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilərək onların bir qismi yerindəcə həll olunmuş, bir qisminin isə həlli istiqamətində aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev növbəti onlayn-müşavirə keçirmişdir



Qəbələ Rayon İcra Hakimiyyəti Başçısı cənab Səbuhi Abdullayev koronavirus infeksiyası (COVİD-19)-la mübarizə tədbirlərinə həsr olunmuş video-konfrans formatında müşavirə keçirmişdir. Müşavirədə Qəbələ rayon polis şöbəsinin rəisi Nadir Məmmədov, rayon icra hakimiyyətinin məsul vəzifəli şəxsləri, qəsəbə və kənd inzibati ərazi nümayəndələri iştirak etmişlər. Tədbirdə koronavirusla əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkə əhalisi qarşısında qoyduğu qaydaların icrası vəziyyəti, koronavirusla mübarizə, virusdan qorunmaq üçün qoruyucu vasitələrdən istifadə, insanların lüzumsuz toplanmalarına, yığıncaq və tədbirlərin keçirilməsinə, yerlərdə sanitar-dezinfeksiya işlərinin davamlı aparılması ilə əlaqədar ərazi nümayəndələrinə aidiyyəti tapşırıqlar verildi.

Müşavirədə son bir ay ərzində bütün ölkə üzrə karantin qaydalarına əməl olunmasına nəzarətin vəziyyəti müzakirə olundu, nöqsanlar qeyd edildi, onların aradan qaldırılması haqda təkliflər səsləndirildi.

Karantin qaydalarına riayət edilməsi üzərində nəzarətin texniki, inzibati və maarifləndirmə aspektləri müzakirə olundu.